

## YASİN ELOĞLU

***"Könül dostlarımla yazışmalar" silsiləsindən (1980-ci illər)***

### QAĞA

*Hüseyn Arifə*

Çox səddləri aşammırıq
Nə deyim ki, dinib; Qağa!
Yalan, hiylə yüksələndən
Haqq-ədalət, enib, Qağa!

Zalım sərhəd belə bilmir,
Bəndə demir, lələ bilmir
Yüyəni görmür, şələ bilmir.
Cin atına minib, Qağa!

Saxta vədlər təntənəsi
Asıb-kəsmək ənənəsi
Qadağalar məngənəsi,
Azadlığı yenib, Qağa!

Dərdim çoxdur deyiləsi
Çarə yoxdur sən biləsi?
Bəxtimizin dönəlgəsi
Yaman yerdə dönüb, Qağa!

Eloğluyam bilsin hamı
Dağlayan yox heç yaramı.
Mərhəmətin məlhəm şamı
Söndürüblər sönüb, Qağa!
*1984*

### SARI

Hara getsəm bəla gələr,
Nələr çəkmiş başa sarı.
Kipriyimlə od götürsəm
Alovlanar qaşa sarı.

Zalımdan kim razı qalıb,
Əlini hamıya çalıb.
"Zulum" adlı bir yol salıb
Üzü dağa-daşa sarı.

Günəş çıxır, şəfəq saçır,
Gecə gündüzə yol açır,
Arzum qışdan yaza qaçır,
Ömrüm yazdan qışa sarı.

Eloğluyam, zaman gülür,
Vermir ara, aman, gülür.
Qanan yanır, yaman gülür,
Gözümdəki yaşa sarı.

### QANAN ÜÇÜN

Tək Allahı dərk eyləmək
Kifayətdir, qanan üçün.
Ruh da ali bir varlıqdır,
Həqiqətdir, qanan üçün.

Xeyir-işıq, şər - qaranlıq,
Kef -yaxşılıq, dərd -yamanlıq
Yoxsulluqla nagümanlıq
Müsibətdir qanan üçün.

Eloğlu, gəl durma, tələs,
Naşılığın kökünü kəs!
Yanan ürək, halal nəfəs
Qənimətdir, qanan üçün.

### MƏNİM

Nə vaxt olsa vəfasızın
Düşməniyəm özüm mənim.
Dünya ilə döyüşürəm,
Dərd onundur, dözüm mənim.

Qismət olan gördüyümdür,
Gödək olan ömür- gündür.
Açılmamış bir düyündür,
Deyilməmiş sözüm mənim.

Eloğlu,dünya oyuncaq,
Kim oynasa, uduzacaq,
Gündə dolur, doymur ancaq,
Keçən gündən gözüm mənim.

### MƏN

*Könül və şair dostum A.Səmədə süfrə arxasında bədahətən deyilib-1983*

Ayə, məndən qorxub qaçma,
İnsafa gəl, insanam mən!
Deyirsən ki, inadkaram
Özüməcə düşmanam mən!

Səndə ağıl, dühа, yaxşı,
Ucuzu yox, baha yaxşı!
Yaxşılara daha yaxşı
Yamanlara yamanam mən!

Göyə deyir yer dərdini,
Xeyir çəkir şər dərdini.
Hər birinin, hər dərdini
Mənim bilib yananam mən!

Qardaşını özün sına,
Qılınc olub girməz qına.
Zülmə qarşı gah fırtına,
Həm inqilab, üsyanam mən!

### GÖR

Dostum bütün günahları,
Təbiətin özündə gör,
Acılığı astarında,
Şirinliyi üzündə gör.

Yaxşı necə nadirdisə,
Çox yaşamır,nə sirrdirsə.
Hər kim nəyə qadirdisə,
Onu elin gözündə gör.

Eloğlunun haqdı dini,
Dərk etməkdir hər çətini.
Ruhun ali qüdrətini,
Aqillərin sözündə gor.

### A DÜNYA

Əvvəlini görən yoxdur,
Sonun da ki heç, a dünya!
Gəl dənini üyütməmiş,
Bir ələk dən keç, a dünya!

Çox dərinə zaman qoymur,
Çox dərdini ağıl duymur.
Yaratdığın səndən doymur,
Özün dağıl, uç, a dünya!

Eloğludan bir od düşsün,
Kalın dəysin, çiyin bişsin,
Qoysan əkdiyin, yetişsin,
Ondan sonra biç, a dünya!

### HƏLƏ Kİ...

Bu dünyanı dərindən yox, dayazdan,
Tuta-tuta sürünürük, hələ ki.
Boş xülyalar, xam xəyallar içində,
Yata-yata sürünürük, hələ ki.

Yüz ölçsək də,bir biçsək də hər dəfə,
Hər aldanış səbəb olub bir səhvə,
Yayımızı düz tutmayıb hədəfə,
Ata-ata sürünürük ,hələ ki.

İnsan nədən üz tutmayır pənaha?
Yaman uyub var-dövlətə, tamaha.
Tək Allahın yanındaca günaha
Bata-bata sürünürük, hələ ki.

Cəmiyyət ki,öz içindən talana
Ümid də yox heç bu kökə salana
Belə-belə, həqiqəti yalana
Sata-sata sürünürük, hələ ki.

### DƏRDDİ DƏRD

Yaxşılığın pisliyə də xeyri var,
Yaramazın yamanlığı,dərddi dərd!
Al- qaranlıq gecələrdə Ay doğar
Qara qəlbin qaranlığı,dərddi dərd!

Bahar gəlib,can gətirib arana,
Dağ başında borana bax,borana.
Təbiətin nadincliyi bir yana
Cəmiyyətin nadanlığı, dərddi dərd!

Ay Eloğlu, çərxi fələk havalı
Həddi keçib bu dünyanın zavalı.
Boş beyinin düşüncəsi davalı
Ucuz başın dumanlığı, dərd di dərd!

### BİLMİRƏM

Dünya mənə bildiyini eyləyir,
Əvəzində nə eyləyim, bilmirəm.
Bir halda ki,yaranışın səhvi var,
Yaradana nə söyləyim, bilmirəm.

Keçilməmiş neçə dağım, düzüm var,
Nə yaxşı ki, canda hələ dözüm var.
Qanan üçün deməyə çox sözüm var.
Qanmaz üçün nə əyləyimi,bilmirəm.

Eloğluyam,hanı elə ixtiyar,
Sayəsində insan olsun bəxtiyar.
Yer üzündə çatışmayan nəsə var?
Göydən yerə nə diləyim, bilmirəm.

### AZ DANIŞ

Heç öyünmə, dünya səndən şox bilir,
Çox da olsa, qismətindən, az danış!
Bu yollarda itib-batıb nəhənglər,
Öz gücündən, qüvvətindən az danış!

Bu dünyanın çox vədləri yalandır.
Verdiyini bir-bir geri alandır.
Qazandığın sənin deyil, qalandır,
Gəl varından, dövlətindən az danış!

Aç gözünü,gör nələr var,nələr yox.
Ac dünyada varmı,axtar gözü tox?
Çəkdiyindən çəkmədiyin daha çox
Ötən günün ləzzətindən az danış!

Ay Eloğlu, dərdin çoxdur sağalmaz.
Gün doğmamış dan yeri də ağarmaz.
İnsanlığın yarası ki dağ olmaz,
İnsafından,mürvətindən az danış!

### ZAMANI TANIYA BİLMİRİK HƏLƏ

Zamanın sehirli bir sükanı var
Keçirə bilmirik ələ biz onu
Bu sonsuz boşluğun dibinə düşüb
Tanıya bilmirik hələ biz onu

Elə bil dünyanın gücü azalıb
Düşünən insanı çox yaşadammır
Görən olubmu ki özü ac qalıb?!
Bir tikə ürəyi tox yaşadammır!

Zəmanə özünü üzdən tanıdır
Bəndəni dərinə girməyə qoymur
Hamının gözünə gözəl görünür
Eybini gizlədir, görməyə qoymur!

Bu uzun yolları qalxıb enirik
Dənizdə oynayan dalğalar kimi
Günəş üzümüzə baxıb gülsə də
Ömrümüz əriyir dağda qar kimi

Arzunun, istəyin sonu yoxsa da
Taleyə,qismətə bir sərhəd olur
Dünyadan istəyib alanmadığın
Yığılır ürəkdə min bir dərd olur.

İxtiyar Allahın əlindədirsə,
Nə verib,qaytarıb almamalıdır.
Açılmaz mənalar dərindədirsə,
Ağlımız dayazda qalmamalıdır.

### AMANDI

Ey insanlar,gec də olsa ayılın,
Aldatmayın özünüzü amandı!
Yaranışın sonu yoxdur deyirlər,
Geniş açın gözünüzü, amandı!

Gülərüzlü o Günəşin nə dərdi,
Gətirdiyi al şəfərqli səhərdi.
Haqsızlıq ki, insanlığa zəhərdi,
Haqqa tutun üzünüzü, amandı!

Eloğlundan bir məsləhət şip-şirin:
Fikrinizi beyninizdə bişirin.
Həll bişəndə dilə-dişə düşürün,
Çiy deməyin sözünüzü, amandı!

### GÜNBƏGÜN

Elə bilmə elmin təkcə xeyri var,
Ziyanı da sürətlənir günbəgün.
Çox da tarix tərəqqiyə güvənir,
Tənəzzül də qüvvətlənir günbəgün.

İlahinin dəyirmanı belədir:
Nəyi varsa üyütdürür ələdir.
Şər insana nə istəsən elədir,
Çox da şeytan lənətlənir günbəgün.

Ay Eloğlu, dərinlərə sən də gir,
Açılmayır düyün düşmüş necə sirr.
Heç bilmirəm təbib niyə gecikir,
Ölüm-itim şiddətlənir günbəgün.

### DÜNYANIN

Nə başı var, nə düşünən beyini,
Nə görməyə bir gözü var dünyanın.
Nə dərdini söyləməyə bir dili,
Nə deməyə bir sözü var dünyanın.

Torpaq acdır,hər nə verib alsa da.
Doydurmayır tez boşalıb dolsa da,
Gizlənməyə bir astarı olsa da,
Göstərməyə min üzü var dünyanın.

Həyat ki, var xeyrin, şərin hərisi,
Həyat eşqi bir gözəllik pərisi!
Ay Eloğlu, qozbel kimi əyrisi,
Qəbir kimi bir düzü var dünyanın

### DÜZƏLMƏZ

*M.Araza və H.Arifə*

Dünya elə əyilib ki, binadan,
Düzəlməyib, düzəlməyir, düzəlməz!
İnsan elə doğulub ki, anadan,
Düzəlməyib, düzəlməyir, düzəlməz!

Sağalmayır insanlığın yarası,
Ağarmayır qara günün qarası.
Xeyrin-şərin, yazın-qışın arası
Düzəlməyib,düzəlməyir,düzəlməz!

Ay Eloğlu, ilahinin bir işi-
Heç olmaya bu gəlişin gedişi.
Yoxsa vallah, yoxşuluyla enişi
Düzəlməyib, düzəlməyir, düzəlməz!

### XEYİR-DUA

*Ən tərbiyəli tələbə qızlarımdan olan Aysel Məlikzadənin nişan gününə*

Qəşəngsən, baharın bənövşəsindən
Xoş ətrin bürüyüb bütün aləmi
Od alıb Azərin,odlu eşqindən
Girmisən gəlbinə bir ataş kimi.

Sevgi yazılanda tale payına
Enişli, yoxuşlu yola bənzəyər
Olur ki üreyin yetər hayına
Olur ki boy verməz kola bənzəyər

Sevib-sevilməyin haqqındır sənin
Haqdan nə gəlirsə qayıdan deyil.
Allahın verdiyi bu saf sevginin
Unutma,hər zaman qədrini sən bil

Həmişə şax qalsın eşqin qaməti
Qoy ülvi məhəbət zinətin olsun
Dünyanın ən şirin,gözəl neməti
Xoşbəxtlik, ay qızım,qismətin olsun!
***2019***